Unudulmaz sənətkarlarımızla bağlı hər birimizin qəlbində nə qədər xatirələr yaşayır. Onları həssaslıqla toplayıb zaman-zaman oxucuların diqqətinə verməklə bir rahatlıq tapırıq. Bu mənada, Azərbaycanın Moldovadakı Fövqəladə və Səlahiyyətli səfiri İsfəndiyar Vahabzadənin atası - ölməz şairimiz Bəxtiyar Vahabzadə haqqında dilə gətirdiyi kövrək notlarla dolu həzin duyğuları sonsuz maraqla qarşılayacağınıza əminik...



İsfəndiyar VAHABZADƏ

# Nə zamansa bu nişanda bir atam vardı...

Əgər dünyasını dəyişməsəydi, indi səksən beş yaşı qeyd olunacaqdı. Əlbəttə, səksən dörd il ömür sürmək, özü də elə mənalı, həm qalmaqallı, keşməkeşli, həm asudə, həm mübarizəli, həm təhlükəli, həm sakit, həm səsli-küylü, amma mürgüsüz, süstsüz, ayıq bir həyat yaşamaq elə də sən deyən az bir vaxt deyil.

Onun gördükləri, çəkdikləri, bildikləri, kədəri, qəmi, dedikləri və deyə bilmədikləri, udub içəri verdikləri, onun mübarizəsi, çığırtısı, fəryadı, yanğısı, eşqi, həsrəti, vətənə, millətə, xalqa, torpağa, dilə olan sonsuz məhəbbəti, qatı millətçiliyi, qorxmazlığı, Allahın ona səxavətlə verdiyi istedadı, bir qədər mülayimliyi, eyni zamanda son dərəcə sərtliyi, əsəbiliyi, coşqunluğu, iradəsi, hikkəsi, düşmənə qarşı olan nifrəti, barışmazlığı, uşaq kimi kövrəkliyi, müdrikliyi, əyilməzliyi, bütövlüyü... bəlkə də bölünsəydi, parçalansaydı yüz nəfərə çatardı.

İlahi... bütün bu dediklərim, sadaladığım xüsusiyyətlər bu arıq bədənə, bu zərif vücuda necə sığırmış? Bütün bunları o özündə necə saxlayırmış?

Amma atam bu xüsusiyyətlərin hamısını təkbaşına özü çəkdi, hamısını da axır nəfəsinə qədər özündə saxladı, dəyişmədi, dönmədi. Baxmayaraq ki, özü demişkən "çox da dünya fırlanır", bölünmədi, heç kimə də bu xüsusiyyətlərindən heç nəyi vermək istəmədi. Qıymadı...

Çünki bu xüsusiyyətlərin hamısı bir-birindən çətin, bir-birindən ağır idi, çəkiləsi deyildi, əzablı idi, ağrılı idi. Onun üçün də atam heç kimə bu xüsusiyyətlərindən heç nəyi qıymaq istəmədi. Çünki bütün bun-

ları görüb, başa düşüb dərk etmək, qana-qana yaşamaq, yaşaya-yaşaya qanmaq, bütün bu ağrıları çəkmək, hər şeyi anlamaq böyük müsibət idi, zülm idi.

■

Bu zülmü, bu müsibəti isə atam heç kimə qıymadı, qıymaq istəmədi.

Təkcə...

Bu xüsusiyyətlərindən tək bircə özü demişkən mənə düşdüyü, özü də istəmədən mənə verdiyi vətənə, xalqa olan dərin məhəbbəti, millətə olan qatı sevgisi, dəli kimi məftunluğu oldu. Vəssalam.

Mənə verdiyi tək elə bircə bu oldu. Bu isə yuxarıda sadaladığım bütün bu xüsusiyyətlərin hamısını elə özündə birləşdirirdi. Həm də bu xüsusiyyət bütün bunların hamısından daha ağır, daha zülmlü idi. Çətin idi. Bunu isə atam tək elə bircə mənə qıydı. Özü də çox böyük səxavətlə, özü də istəmədən mənə verdi. Məndən əsirgəmədi...

Əlbəttə, əgər dünyasını dəyişməsəydi, bu il yubiley ili olacaqdı. Baxmayaraq ki, ad günləri, yubileylər, təmtəraq-filan xoşlamırdı. Deyilən təbrikləri, təmtəraqlı sözləri də elə-belə candərdi qəbul edirdi. Özü də həmişə deyirdi ki, yetmiş yaşdan artıq yaşanılan hər bir gün Allahın hədiyyəsidir.

Yaşadığım həyatımdan, ömür payımdan çox razıyam. Allahıma min şükür. Vaxtında bu dünyadan getmək özü elə ən böyük mədəniyyətdir. Sən Allah, daha məni təbrik etməyin. Ayıbdır. (Axı ay ata, bu dünyadan köçmək elə bu dünyaya gəliş kimi insanın özündən asılı deyil ki, mədəniyyət də göstərəsən).

Əgər atamın dediyi kimi yetmiş yaşdan artıq yaşanılan hər bir gün Allahın hədiyyəsidirsə onda belə çıxır ki, atam Allahdan on üç il, altı ay, üç gün hədiyyə alıb. Min şükür!

Əlbəttə, kimsə deyə bilər ki, səksən dörd il yaşamaq elə də az bir vaxt deyil axı... Bəsdir, kifayətdir... Xeyir, mən bu fikirlə razı deyiləm. Yox, qətiyyən yox.

Əlbəttə, eqoistlik olsa da, boynuma almalıyam ki, əgər bir kimsədən eşitsəydim ki, filankəs səksən dörd il ömür sürüb, özü də belə bir ömür, belə bir mənalı həyat yaşayıb, ad çıxarıb, məşhurlaşıb, öz-özümə deyərdim ki, "Daha nə istəyir ki, bəsidir də... Bundan da artıq həyat nəyinə lazımdır ki... gördüyünü görüb, etdiyini edib, dediyini də deyib".

Amma özümə çatanda isə... Yox, yox səhv edirəm. Əstağfürullah, min dəfə əstağfürullah... heç öz fikirlərimlə də razı deyiləm. Qətiyyən razı deyiləm. Yox, mənim atam çox az yaşayıb. Əşşi nə yaşayıb ki, ey... Çünki atanın yaşını soruşmazlar. Ata ömrü heç bir yaş ölçüsünə, ömür çərçivəsinə daxil ola bilməz, sığa bilməz. Ata həmişə hər bir yerdə elə atadır. (Özü də elə bir ata) "Özü də elə bir ata" kəlməsi hər bir atanın kimliyindən, nəçiliyindən, necəliyindən asılı olmayaraq hər bir ataya şamil olunmalıdır. Çünki ata ən müqəddəs varlıqdır, ata hamıdan güclüdür, ata böyük qüvvədir, ata ən uca bir dağdır. Ata hər şeyə qadirdir.

■

1934-cü il idi. Məşhur Şəki üsyanı çoxdan yatırılmışdı. Ancaq üsyanı törədənlərin axtarışları hələ də davam edirdi. O zaman hələ babamgil Şəkidən Bakıya köçməmişdilər. Atamın da doqquz-on yaşı olardı. Atamın əmiləri də bu üsyanda guya iştirak etmişdilər deyə həbs olunmuşdular.

Böyük bir külfəti saxlamaq isə təkcə babamın çiyinləri üzərində idi. Çox çətin idi. Dağdan odun gətirməklə, sonradan onu yandırıb kömür edib satmaqla o böyüklüyündə ailəni zorla saxlayırdı.

Günlərin bir günündə babam atamın əlindən tutaraq Şəki milis idarəsinə xahişə, minnətə gəlir ki, bəlkə indi kimisə dinə, insafa gətirib heç olmazsa qardaşlarından birini azadlığa buraxdıra bilsin. Yazıq kişi yeganə gümanı gəldiyi özünün zəncirli saatını da götürmüşdü ki, orada kiməsə hədiyyə eləsin.

Babam atamı dəhlizdə qoyub milis rəisinin otağına girir. Amma heç beş dəqiqə çəkməmiş, qapı zərblə açılır, milis rəisi arxadan yumruqla babamı vurub otağından çölə elə itələyir ki, kişi üzüqoylu yerə yıxılıb pilləkənləri aşır.

- Rədd ol burdan ə... bir də ayağın bu tərəflərə dəysə, səni də göndərəcəyəm qardaşlarının yanına - deyir.

Heç nə başa düşməyən doqquz-on yaşlarında olan Bəxtiyar yerə yıxılıb burnu qanayan atasına dəhşətlə baxıb, İlahi pərvərdigara, mənim də atama əl qaldırmaq olarmış? Mənim də atam yerə yıxıla bilərmiş? Mənim də atamın burnu qanaya bilərmiş? - gözləri qəhərdən dolmuş halda milis rəisinə nəsə demək istəyir.

Milis rəisi gözucu atama baxıb:

- Bunu da rədd eləyin burdan, - deyib elə otağına daxil olmaq istəyir ki, o zaman atam gözləri yaşla dolmuş, qəhərdən kövrəlmiş halda:

- Sən mənim atamı itələyirsən? Ax... Əgər mən bu hayıfı səndə qoysam, heç atamın oğlu deyiləm -deyir.

Milis rəisi nifrətlə atama baxıb:

- Ə... sən bir buna bax... İlanın balası ilan olacaq.

Sonra üzünü tabeçiliyində olanlara tutub:

- Ə... demədim sizə, rədd eləyin bunu burdan.

Bir milis nəfəri atama yaxınlaşmaq istəyəndə babam cəld ayağa duraraq üst-başını çırpıb üzünü həmənki o milisə tutaraq - "a bala, uşaqla işin olmasın, gedirik, gedirik" - deyir.

Daha sonra uşaq pərt olmasın deyə, babam fağır-fağır gülümsəyərək oğlunun əlindən tutub evə gəlir. Yol boyu heç biri heç nə danışmır. Yalnız babam uşağın könlünü ələ almaq, fikrini dağıtmaq üçün, heç nə olmayıbmış kimi gülümsəyə-gülümsəyə - ay bala, sənə nə alım, ürəyin nə istəyir? -deyə soruşur. Uşaq heç nə istəmir. Elə sakit-sakit, pərt-pəjmürdə evə gəlirlər. Atam deyir ki, həmin gün atası baxışlarını ondan qaçırırmış. Utandığından oğlunun üzünə baxa bilmirmiş. Bütün bu olanlara görə, oğlunun yanında belə təhqiramiz alçaldığına görə xəcalət çəkirmiş. Elə oğlu da atasının üzünə baxa bilmirmiş. Bu necə belə ola bilər axı?

Axı mənim atam hamıdan güclüdür. Onu niyə vururlar? Atam danışırmış ki, bir neçə gün hər dəfə bu alçaldıcı səhnə onun gözləri qarşısında canlananda gözləri dolurdu, kövrəlirdi, atasına gizli-gizli baxıb ağlayırdı və birdən özünü saxlaya bilməyib gəlib atasının ayaqlarını qucaqlayıb ağlaya-ağlaya - Ay dədə, mən bu hayıfı onda qoymayacağam. Axı o niyə səni vurdu? Vallah sənin intiqamını ondan alacağam - deyir.

Hətta atam sonralar bu hadisəni özünün "Etiraf" poemasında elə olduğu kimi də qələmə aldı. Günahsız yerə həbs olunan atasına görə Bahadır üzünü prokuror Eyvaza tutub deyir:

***Dedi: mən gedirəm, zora nə hacət,***
***Biz də tanınarıq gələr bir məqam.***
***Ancaq Eyvaz kişi, atama lənət***
***Əgər bu hayıfı mən səndə qoysam.***
***Prokuror yarımçıq kəsib sözünü***
***- Sən bir buna bax,***
***İlanın balası ilan olacaq.***

İllər ötdü, zaman dəyişdi, dövran başqalaşdı. Atam bir telefon zəngi ilə dünyanın işini aşıran, dağı-dağ üstünə qoyan bir məqama gəlib çatdı. Yay vaxtı Şəkidə istirahət etdiyimiz bir zaman atam maşınla harasa gedirdi.

Birdən küçədə yerdə çönbəltmə oturan bir qoca kişini görüb dərhal maşını saxlatdırır. Yaxınlaşıb ona salam verir. Qoca başını qaldırıb:

- Ay bala gözlərim tutulub, görmürəm sən kimsən, kimin oğlusan?

Atam onun çirkli, cır-cındır içində olan geyiminə baxıb köks ötürür, heç nə demir. Axı nə desin? Çünki olan olmuşdu. Bir müddət qocaya baxıb elə yenidən maşına tərəf qayıtmaq istəyir ki, həmin qoca kişi:

- Ay oğul, səni tanıya bilmədim axı. Vallah səhərdən də acam, varındısa, mənə pul verəydin - deyib, atama əl açır.

Atam bu ələ baxıb öz-özünə:

- Ay Allah, sən bu dünyanın işlərinə bax - deyir. - Bu əl vaxtilə mənim atamı vurmuşdu. Bu əl mənim atam kimi qüvvətli bir adama qalxmışdı. Bu yalvaran dil vaxtilə bizim bütün nəslimizi təhqir etmişdi. Bu tutulub kor olan gözlər bir vaxtlar bizə nifrətlə baxardı. İndi isə bu gözlər tutulub kor olub, bu əl, bu dil məndən kömək istəyir, məndən imdad istəyir.

Atam yalnız bir kəlmə söz deyir.

- Yaxşı ki, məni tanımadın. Sonra əlini cibinə salıb vaxtilə milis rəisi olmuş, indi isə küçədə durub ona-buna əl açan bu qoca kişiyə dəqiq yadımda deyil, deyəsən iyirmi beş manat pul verir. Kişi pulun qəpik-quruş deyil, kağız və həm də deyəsən məbləğin böyük olduğunu barmaqları ilə hiss edib dərhal atamın əlindən tutub öpmək istəyir. Atam cəld əlini qaçırır. Qayıdıb maşına oturub cəld raykomun binasına gəlib, katib ilə danışır ki, bu kişinin təqaüd məsələsini bir az artırsın və yaxud heç olmasa ona bir az nədəsə köməklik eləsinlər.

- Bəxtiyar, sən bu kişini tanımırsan? Bu kişinin Şəkidə yıxmadığı ev yoxdur, söndürmədiyi ocaq yoxdur. Bu kişi vaxtilə evlər viran qoyub, ocaqlar söndürüb e...

- Bilirəm, hamısını bilirəm. Amma bu mənim səndən şəxsi xahişimdir...

Atam danışırdı ki, atam yıxılıb pillələri aşan günə qədər elə bilirdim ki, ondan qüvvətli, ondan güclü adam yoxdur bu dünyada. Bu necə ola bilər? Mənim atama kim əl qaldıra bilər? Vallahi atam aləmi bir-birinə qatar. Amma sonra...

Allah heç bir atanı övladının gözü qarşısında alçaltmasın, əskiltməsin...

Amin... Bu ata üçün də, elə övlad üçün də böyük dərddir, əzabdır, dözülməzdir.

Böyük Çin mütəfəkkiri, akademik, yazıçı Qo Mo Jo "Qırmızı zambaqlar" əsərinin bir yerində yazır (Əslində bu əsəri, yazıçının elə bir növ tərcümeyi-halı da adlandırmaq olar): "Vaxtilə bu dünyada bir müqəddəs adam tanıyırdım. O da mənim atam idi. İndi o yoxdur bu dünyada. Demək, mənim üçün heç bir müqəddəs adam da yoxdur".

Bu sözləri Qo Mo Jo atasının ölümündən sonra yazıb və atası oğlunun bu sözlərindən, ona qarşı olan belə hədsiz məhəbbətindən xəbəri olmayıb. Qo Monun atası sadə bir kəndli olub. Torpaqdan, əkin-biçindən başqa bu dünyada ayrı bir şey bilməzdi. Atası-

nın ölümündən sonra özünə gəlməyən yazıçı adı çəkilən əsərində çox böyük fəxarət hissi ilə deyir ki, "mənə bu savadı, bu təhsili, bu ağılı atam verib. Həyatda nəyə nail olmuşamsa hamısı atama görə olub. Bütün bunlara görə ilk növbədə atama borclu olmalıyam".

Amma halbuki dediyim kimi atası savadsız, adi bir kəndli olub. Yazıçı isə deyir ki, "nə qədər bu dünyada yaşasam da atamın ağlının, müdrikliyinin heç yarısına da çata bilmərəm".

Karl Marksın atası isə öz dövrünün ən tanınmış hüquqşünaslarından biri olub. Oğul atasının, ata da oğlunun dəlisi idilər. Bir-birlərindən ayrı dura bilmirdilər. Amma birinin sözü də digərinin boğazından keçmirdi. Tez-tez mübahisə edirdilər. Nəticədə K.Marks kirayə ev tutaraq atasından ayrı yaşamalı olur. Sözsüz ki, bu ata-oğulun mübahisəsi adi məişət zəminində olmurdu.

Xeyr. Dünyaya baxış, fəlsəfə, müxtəlif ictimai, siyasi formasiyalar və sairə... bu ailənin gündəlik söz-söhbəti, mübahisəsi idi. Amma bütün bunlara baxmayaraq oğul atasının şəklini ömrü boyu üstündə gəzdirir. Ömrünün sonuna qədər də atasının şəklindən ayrılmır. Ən müqəddəs bir ikona kimi atasının şəklinə səcdə edir. Bütün çətinliklərini də, çıxılmazlığını da atasının şəkli ilə bölüşərmiş, saatlarla şəklə baxarmış. Hətta öləndə də vəsiyyət edir ki, atasının şəklini də onunla birgə basdırsınlar. Çünki bu dünyada ən çox sevib, sitayiş etdiyi yeganə şəxs elə atası olub.

Ata-oğul münasibətləri haqqında olan belə misalların sayını istənilən sayda göstərmək olar.

Mən indi nə Qo Mo Jonun, nə Karl Marksın, nə də ki, digərlərinin atalarına olan məhəbbətlərini bir ataya olan tərif kimi vermək istəmirəm. Əlbəttə, bir ata haqqında deyilən və yazılan bu sözlər, bir ataya qarşı olan isti münasibət, məhəbbət heç bir atanın tərifi deyildir. Amma nədənsə bu müqəddəs varlığa olan məhəbbət, sevgi övladları tərəfindən çox vaxt gizli qalır, açılmır, bildirilmir. İstənilən səviyyədə açılıb göstərilmir.

Atam danışırdı ki, atası heç adını da yaza bilməyən savadsız bir kişi olub. Bir neçə il mollaxana təhsili alıb. Vəssalam. Amma çox sərrast, öz hədəfinə dəyən müşahidə qabiliyyəti olub.

Hərdən oturub mənimlə bu dünyanın gəlişindən-gedişindən, gəlirindən-çıxarından danışanda məəttəl qalırdım ki, axı bu kişi bütün bunları hardan bilir? Axı bütün bu dediklərini o heç bir yerdə oxuya da bilməz. Çünki savadı yoxdur.

Fikirləşirdim ki, mən isə ali təhsilli bir adam, aspiranturanı da bitirmişəm, bu gün-sabah müdafiə edib elmlər namizədi, alim olacağam, bu kişi isə mənə bu dünyanın işlərini başa salmaq istəyir. Çox vaxt da atamın dediklərinin fərqinə varmazdım.

Amma indi... indi isə yaşa dolduqca başa düşüb görürəm ki, yox, atam sən demə heç bir yerdə səhv etməyibmiş, bu dünyanın hər bir işindən də hali imiş, xəbərdar imiş.

İndi görürəm ki, bu dünyada təzə heç nə yox imiş. Vallah hər bir şey bu dünyada köhnə imiş. Sən demə dünya bina olandan bu günə kimi hər bir şey təkrarlanırmış. İş heç də savadda deyilmiş, heç çox oxumaqla da deyilmiş. Yox, əlbəttə yox. Axı bu dünya fırlanır. Və fırlandıqca da hər bir şey təkrarlanır, təzələnmir, yox bu bizə belə gəlir ki, dünya fırlanlıqca təzələnir.

Vallah yox, biz özümüz-özümüzü aldadırıq. Dünya fırlandıqca təzələnmir. Əksinə köhnələr təkrarlanır. Atam deyərdi ki, mən bu fikrə, bu əqidəyə müxtəlif alimlərin kitablarını oxuya-oxuya altmış yaşımda gəlib çıxmışam. Savadı olmayan atam isə heç bir kitab oxumaya-oxumaya bütün bunları mənə əlli yaşında deyirmiş.

Dünyanın bir nöqtədən başlayıb, dairə vurub yenidən eyni bir nöqtəyə gəlib çatmasını və bununla da dünya hadisələrinin müxtəlif zamanlarda elə müxtəlif formalarda təkrarlandığını ilk dəfə böyük italyan, filosofu, diplomat və dramaturqu Nikola Makiavelli özünün "Hökmdar" əsərində elmi dillə yazıb.

Atam N.Makiavellinin adı çəkilən əsərini elə altmış yaşında oxuyandan sonra dediyi qənaətə gəlibmiş. Heç Makiavellinin adını belə eşitməyən, onun mövcudluğundan belə xəbəri olmayan atamın atası isə bəs bütün bunları görəsən hardan bilirmiş? Atam öz atasının hər dediklərini sonralar yada saldıqca, xatırladıqca dəhşətə gəlirdi. Deyirmiş -İlahi mənim o savadsız atam nə boyda müdrik bir adam olubmuş. Sən demə mən indiyə kimi yeni heç nə deməmişəm ki, heç nə yazmamışam ki...

Elə ancaq atamın dediklərini yazmışam. Sən demə mənim o cild-cild kitablarımın müəllifi də o savadsız atam imiş. Sən demə mən elə onu təkrarlamışam ki... Və bundan sonra bir bu qədər də yaşasam yenə də atamın bildiklərinin, onun müdrikliyinin yarısına da çata bilmərəm. Atam da hərdən mənimlə dünyada baş verən hadisələrdən, siyasətdən, diplomatiyadan danışardı. Təəccüb edərdim. Heç cürə ağlıma sığışdıra bilmirdim ki, mənim atam diplomatiya sahəsindən xəbərdar olsun və nəsə bu barədə bilsin. Axı o şairdir, xəyalı göylərdə uçur, ədəbiyyatçıdır.

Diplomatiya hara, şairlik hara? Diplomatiya hara, lirika hara? Təəccüblüdür. Yox, atam dünya siyasəti barəsində naşı adam deyildi. Dünyada baş verən hadisələrdən də əla baş çıxarırdı. Siyasət aləmində gedən oyunları, biclikləri dərhal hiss edirdi, intuitiv duyurdu. Yeri gələndə öz fikrini də bildirirdi. Amma ki, diplomatiya hm...

■ Bir dəfə beşinci kursda oxuduğum vaxt universitetin hərbi kafedrasından təhsil aldığım şərqşünaslıq fakültəsinin dekanlığına zəng edib dedilər ki, hərbi kafedranın müdiri polkovnik Seyidov, İsfəndiyar Vahabzadəni və bir də filankəsi təcili yanına çağırır. Biz dördüncü kursdan artıq hərbi dərslərimizi bitirib qurtarmışdıq. Hərbi toplantı xidmətini də başa vurmuşduq. Təkcə imtahanımız qalırdı ki, o da bu gün-sabah olmalı idi. Həmin gün hərbi kafedraya getdik. Orada bizi mülki geyimli bir nəfər gözləyirdi. Bizimlə çox mehriban görüşdü. Məlum oldu ki, Moskvadan gəlib. O dövrki SSRİ təhlükəsizlik orqanlarının əməkdaşıdır. Rütbəsi mayor, familiyası isə Frolovdur. Bir qədər ordan-burdan söhbət etdik. Gələcək planlarımızla maraqlandı. Sonra dedi ki, istərdik, təhsilinizi başa vurandan sonra dövlət təhlükəsizlik orqanlarında çalışasınız. Bu işə necə baxırsınız? Sonra üzünü mənə tərəf tutaraq: -Bizdə olan məlumata görə siz İrana getməyə hazırlaşırsınız. Dedim ki, bəli sənədlərim artıq Moskvadadır. Amma sizin təklifinizi gərək mütləq evdə atamla məsləhətləşim.

Bir qədər üz-gözünü turşutdu:

- Buna elə bir ehtiyac yoxdur. Onsuz da sizin atanız bundan əvvəl-axır xəbərdar olacaqdır, artıq bir ildən artıqdır ki, biz sizin ailənizlə maraqlanırıq. Hər bir cəhətdən siz bizim meyarlarımıza uyğun gəlirsiniz. (Bəlkə siz mənim meyarlarıma uyğun gəlmirsiniz?) Xüsusilə sizin farsca ləhcəniz, rəvan və səlist danışığınız bizim çox xoşumuza gəlir. Elə bil ki, bu saat Tehrandan gəlmisiniz. Birdən-birə mənimlə farsca danışmağa başladı. Onu da deyim ki, farsca çox gözəl və səlist danışırdı. Əgər sarışın olmasaydı, mən elə bilərdim ki, o rus deyil, iranlıdır. Dedi ki, sizin bizim orqanlarda işləməyə məgər etirazınız var? Əgər etirazınız yoxdursa siz daha niyə bunu məsləhətə qoyursunuz ki, çoxları bizdə, bizim orqanlarda işləməyə can atır.

Mən bütün bunları atama deyəndə kişi ikrahla gülümsündü. Sonra başını bulayaraq dedi kı, bu Sovetin KQB-si ya çox əla, hətta deyərdim əladan da əla peşəkarcasına işləyir və yaxud da çox pis, lap belə bərbad halda işləyir. Ona görə ki, məni əla tanıya-tanıya, mənim kim olduğumu bilə-bilə, mənim hansı düşüncənin yiyəsi olduğumu bilə-bilə, hər addımımı güdə-güdə, mənim övladımın da məndən eyni tərbiyəni aldığını bilə-bilə, onun hansı ruhda böyüdüyünü görə-görə, onu əla, lap belə məndən də yaxşı tanıya-tanıya, hansı hava ilə nəfəs aldığını bilə-bilə ona belə bir iş təklif edirlər. Hansı ağılla bunu sənə deyirlər? Mənim kimi belə bir disidentin övladını öz tərəflərinə çəkmək istəyirlər? Hə... əgər bu belədirsə, onda demək əla işləyirlər. Ay hay, axı sən bunların heç bir işlərinə yaramayacaqsan, çünki sən elə sənsən. Heç bir vaxt da dəyişməyəcəksən. Yox, əgər bütün bunları bilmirlərsə, bizi fərli-başlı lap belə say xatirinə səni işə götürmək istəyirlərsə... onda demək çox pis işləyirlər. Burada orta hədd yoxdur. İndi əgər bu quruluşu qoruyan bunun KQB-si bu sifətdə işləyirsə, gör indi o biri idarələri nə gündədir. Hə... bu sistem çox gedə bilməz. Beş-on ilə dağılasıdır.

Bu söhbətdən təxminən 12-14 il sonra Sovet sistemi dağıldı. Bizim aramızda olan bu söhbət zamanı Sovet imperiyasının qılıncının dalı da kəsirdi, qabağı da. Və o vaxtlar heç kim də inana bilməzdi ki, az bir vaxtdan sonra belə bir qüvvətli imperiya dağıla bilsin. Yox... Bu sistemin nə zamansa məhv olacağını hamı bilirdi. Buna heç bir şəkk-şübhə yox idi. Amma 1975-ci ildə bu sistemin ömrünə müddət qoymağı isə yalnız atam kimi tək-tük olan müdriklər bilə-bilərdi, görə bilərdi. Atam hər bir həyat hadisəsini intuitiv hiss edirdi. Bu atamın yaşadığı quruluşun apardığı siyasətə olan münasibəti və konkret fikri idi.

Amma ki, diplomatiya, hm...

Atam dünyanın ən məşhur diplomatlarından danışardı, özü də saatlarla danışardı. İndi də nə bilim, Taleyrandan, Jozef Fuşedən, Ribbentrondan, Qraf Çianodan, Masoukodan elə maraqlı hadisələr danışardı ki, heyrət edərdim, deyərdim. - Ay ata, sən bütün bunları hardan bilirsən axı? Mən ömrümün az qala yarısını xarici ölkələrdə keçirmişəm. Sənin yanında yaşımdan böyük danışmaq kimi çıxmasın, bu sahədə saç ağartmışam, diplomatiya sahəsində çalışmışam, səfir işləmişəm, amma sən indi bu dünyanın ən maraqlı sahəsini mənə öyrətməyə çalışırsan... diplomatiya və şairlik. Axı bu iki söz bir-birlərini tam inkar edir. Bu iki söz bir araya sığa bilməz axı. Atam mənim bu sözlərimə gülərdi.

- Eh, ay oğul, sən hələ indiyə kimi bilmirsən ki, dünyanın ən məşhur, ən nəhəng diplomatları elə şairlər, yazıçılar, ədəbiyyatçılar olublar. Çünki diplomat öz xalqını, öz millətini xarici ölkələrdə qoruyur, sinəsini öz xalqına, öz vətəninə sipər çəkir. Şair, yazıçı qədər öz xalqının, millətinin dərdlərini, əzablarını bilən ikinci bir adam yoxdur. Şair, yazıçı qədər öz xalqının yaralarını duyan və bu yaralardan göynəyən

ikinci bir adam da yoxdur. Şair, yazıçı qədər öz xalqını, öz millətini sevən ikinci bir şəxs də yoxdur. Şair, yazıçı qədər də öz milləti, öz xalqı yolunda döyülən də yoxdur bu dünyada. Şəxsən mən tanımıram. Hiyləgərlik, söz oynatmaq, kələk gəlmək-bütün bunlar diplomatiyanın ikinci bir tərəfidir. Ucuz tərəfidir. Əsl tərəfi deyil.

Diplomatiyanın əsas tərəfi millətsevərlik, vətənpərvərlikdir. Öz xalqını tanımaqdır, öz xalqının vurğunu olmaqdır. Əgər vətən sevgisi, millət yanğısı ürəyində yoxdursa, səndən diplomat olmaz. Bu mümkün deyil...

"...Türkiyənin yeddi yüz illik dövlətçilik təcrübəsi var. İndi fikir ver. Son vaxtlara qədər yəni Türkiyənin tam ayağa durub öz sözünü deyənə qədər bütün xarici ölkələrdə çalışan ən bacarıqlı, ən sanballı diplomatları elə şairlər, yazıçılar olublar. Məgər sənin bunlardan xəbərin yoxdur. Axı məncə sən türk ədəbiyyatını pis bilmirsən. Əbdülhəqq Hamid, Yəhya Kamal Bayatlı, Namiq Kamal, Rəşad Nuri Güntəkin, Yaqub Qədri Qaraosman oğlu, Şövkət Məmduh Əsəndal, Sübhi Tanrıver... Əşşi, uzağa niyə gedirsən sənin o stolüstü kitabının müəllifi, o səcdə etdiyin 1952-ci ildə Türkiyənin NATO-ya üzv olmasına birbaşa imza atan Türkiyənin Xarici İşlər naziri olmuş Mehmet Fuad Köprülü, Yurdaqul, Tofiq Fikrət, Sevr müqaviləsinə imza atan Rza Tofiq və s... hansı birini deyim.

Axı bütün bunlar vaxtilə Türkiyənin ən bacarıqlı diplomatları olublar. Elə bunun nəticəsində də Türkiyə diplomatiyası bu gün dünyaya meydan oxumaq səviyyəsindədir. Dünya ədəbiyyatının korifeylərini götürək. Fikir ver, indi adlarını sayacaqlarım dünya diplomatiyasının ən bacarıqlıları olublar. Fransız dramaturqu Bomarşedən tutmuş italyan şairi Bokkaçoya qədər Servantes, Alekyeri Dante, Petrark, Jan Jyuseran, Makiavelli, fransız romantizminin banisi Stendal, Alfons Lamortin, Burbon Basset, Fransua Rene Şatabrion, elə Çörçelin özü və digərləri. Uzağa getməyək. Elə rus diplomatiyasını götürək.

Fikir versən görürsən ki, rus diplomatiyasının ən məşhurları elə yazıçılar, şairlər olublar. Puşkin, Tyutçev, Fonvizin, Qriboyedov, A.Tolstoy, İ.M.Muravyov və başqaları. Vaxtilə Rusiya Xarici İşlər naziri olmuş Çiçerinin Motsart haqqında yazdığı əsəri bu gün də elə sevilə-sevilə oxunur. Adam heç inana bilmir ki, belə bir quru adam belə bir əsər yazsın. Əşşi, belə saymaqla qurtaran deyil ki. Sən təsəvvür elə ki, bu gün Rusiya Xarici İşlər Nazirliyinin qırxdan artıq diplomatı Rusiya Yazıçılar Birliyinin üzvüdür. Özü də bu diplomatlar elə-belə adi boş diplomatlar deyillər. Bacarıqlı, çevik diplomatlardır".

Atam bu diplomatlardan, onların apardığı müşavirələrdən, bağladığı müqavilələrdən, gördükləri işlərdən elə maraqlı hadisələr danışırdı ki...

Sonra atam mənə dedi ki, ay oğul, bəlkə fikirləşəsən, bəlkə bunlardan, şair-yazıçı diplomatlardan nəsə yazasan. Axı bu çox maraqlı mövzudur. Hələ işlənilməyib. Mən özüm də yazardım. Amma mən bu sahənin ancaq özümə aid olan hissəsini bilirəm. Həm də yaşım o yaş deyil. Amma sən... həm diplomatsan, həm də ara-sıra nəsə yazırsan. Bu barədə düşün.

O zaman atamın bütün bu dediklərini adi söhbətlər kimi qəbul edirdim. İndi isə... Ay aman, mənim atam bütün bunları hardan bilirmiş? Hə... sən demə xarici ölkələrdə çalışdığım bütün bu illər uzunu etdiyim çıxışlar, apardığım danışıqlar, əldə etdiyim məlumatlar, uğursuzluqlarım hamısı elə atamınkı imiş.

Ay Allah, bu illər uzunu mən elə atamı təkrarlamışam ki...

Müxtəlif ali məktəblərdə diplomatiya haqqında oxuduğum mühazirələr hamısı elə atamın sözləri imiş ki... Əgər indiki zamanda tələbələrimə az-çox vətənpərvərliyi, millətsevərliyi aşılaya bilmişəmsə demək onlara özüm də bilmədən atamın fikirlərini çatdırmışam. Özümdən heç nə deməmişəm ki...

İndi düşünürəm ki, fərqi yoxdur hansı sahəni seçməyindən asılı olmayaraq əgər diplomat yox lap belə həkim də olsaydım, mühəndis də olsaydım, özümdən asılı olmayaraq, özüm də hiss etmədən elə atamı təkrarlayacaqdım.

Hə... Əgər dünyasını dəyişməsəydi, indi bu ad günündə yenə də, həmişəki kimi qürbət ölkələrin birindən ona təbrik üçün zəng edəcəkdim. Özü də səhər erkən, lap hamıdan əvvəl. Çünki əgər günortaya qalsaydı səbrsiz olacaqdı, hövsələsi daralacaqdı. Telefon zənglərinə cavab verib təbriklər eşitməkdən səbri tükənəcəkdi.

Günorta zəng edib təbrik etsəydim mənə qədər çox adam artıq zəng edib onu təbrik etmiş olacaqdı. Günortaya qədər təbriklər eşitməkdən isə bezəcəkdi.

Bir tərəfdən də ki mən... ev adamı olsam da zəng edib uzaqdan-uzağa ona olan təbriklərimlə, öpüşlərimlə, izhari məhəbbətimlə onu bezdirəcəkdim. O da hamıya əlacsız qalıb mehribanlıq göstərib birtəhər telefonda gülümsəyib təbriklərə təşəkkür etsə də mənə çatanda ərklik göstərib hövsələsiz halda "yaxşı da ay oğul bəsdi... hə, hə... di yaxşı-yaxşı sən Allah ətimi tökmə" deyib sözümü ağzımda yarımçıq kəsib tələsik dəstəyi yerinə qoyacaqdı. Sonra isə üzünü yanındakılara tutub özünə bəraət üçün - Vallah bezdim bu zənglərdən, Allahu Əkbər... nə qədər zəng olar, adama nə qədər zəng edərlər -deyəcəkdi. Bir müddətdən



sonra isə özünə acığı tutub hirslənib - axı mən bu uşaqla niyə belə kobud danışdım, axı niyə onu pərt elədim, sözünü ağzında yarımçıq kəsdim. Düz iş görmədim. Mənə nə deyirdi ki... Uşaq məni təbrik eləmək istədi (yenə də uşaq) mən də ki... Axı o qürbətdədir, təkdir, qəribdir. Özünə hirslənib sonra isə hirsini kiminsə üstünə töküb mənim üçün kövrəlib özü mənə zəng edəcəkdi. Gün ərzində bəlkə də azı beş-on dəfə mənə zəng edib - ay oğul, ay sənin başına dönüm sən Allah məni bağışla deyəcəkdi. Səninlə bir az kobud danışdım. Ə... vallah bilmirəm bu zənglərin əlindən hara qaçım, canımı hara qoyum-deyəcəkdi.

İndi bütün bunlar olmasın, nə atam hirslənib sonra kövrəlsin, nə də ki, mən pərt olum deyə özüm səhər tezdən zəng edəcəkdim. (Onsuz da belə pərtlikləri mən çox görmüşəm, hamısına da alışmışam).

- Ay ata, səni təbrik edirəm. Sənə uzun ömür arzulayıram. Sənə qurban olum, ay ata. Nə yaxşı ki, sən varsan, yoxsa mən nə edərdim. Allah mənim ömrümdən kəsib sənin ömrünə calasın, yaman qəribsəmişəm sənin üçün, ay ata, deyəcəkdim.

Özümdən asılı olmayaraq kövrələcəkdim. O da həmişəki kimi:

- Ə... sən yenə də başladın. Nə ağzına gələni danışırsan, bəsdir də... niyə mənə qarğış edirsən? Ata üçün bu dünyada ən böyük şərəf oğlunun çiyinləri üzərində bu dünyadan köçməkdir. Bir də ki, atası üçün qəribsəyib, darıxan köpəkoğlu gəlib atasını görər. Daha uzaqdan-uzağa zəng edib onu təbrik eləməz. (Eh... ay ata, nə deyim sənə, birini bilirsən birini yox. Axı mən... nə isə...) Mən artıq öz yaşadığımı yaşamışam. Allaha min şükür! Bundan artığını istəmirəm. Mən sənə uzun ömür arzulayıram. Xoşbəxt olasan!. Daha sonra atam bütün bu qarşılıqlı izhari məhəbbətdən bezib, xasiyyətinə tam uyğun olaraq

***"Övladına bircə kəlmə can söyləməkdən***
***Övlad üçün can verməyi asandı ona,-"***

- deyə Ə.Kərimin sözlərinə əlavə edib dedi:

- Bura bax, hə yaxşı... dayan görüm yaxşı yadıma düşdü. Birdən yanında pulun-zadın olmaz ha... Dədən ölməyib ki... denən görüm puldan-zaddan korluğun yoxdur ki...

- Yox, yox, ay ata nə danışırsan? Varımdır. Heç nə göndərib eləmə. Narahat olma. Vallah varımdır.

- Ə... yaxşı görək... varımdır. Guya ki, mən bilmirəm indi sənin nəyin var, nəyin yoxdur.

Onsuz da sabah səhər sənə pul göndərəcəkdim. Mənə qulaq as. Ata verən pul bərəkətli olur, şirin olur. Eh... təki mənim atam sağ olaydı, o da mənə pul verəydi. Vallah, ay oğul, alıcı quş kimi əlindən alardım. Bir də ki, bu pulu mən sənə göndərmirəm ki, nəvəmə göndərirəm, gəlinimə göndərirəm, ürəyi nə istəyir qoy gedib alsın.

- Ay ata, sən Allah bəsdir də... dedim axı varımdır.

- Uzatma dedim. Ə... sən yenə də başladın? Yaxşı sonra qazanıb qaytararsan. İndi isə borc verirəm.

(Eh ay ata... nə vaxt qazanacağam və nə vaxt qaytaracağam?)

Həmişə də söhbətimizin bu yerində vaxtilə Milli Hökumətin başçısı olmuş Nəsib bəy Yusifbəylinin atasına ünvanladığı məktubları yadıma düşür.

Nəsib bəyin atası müəyyən qədər imkanı olan torpaq sahibi, mülkədar idi. Ortabab mülkədarlardan idi. Nəsib bəy Yusifbəylinin harada olmasından, harada yaşamasından, nəçi işləməsindən, kim olmasından asılı olmayaraq, atası Yusif bəyin bir əli həmişə oğlunun üstündə olub. Onu pul cəhətdən korluq çəkməyə qoymayıb.

Nəsib bəy də atasından gələn bu maddi köməyi böyük məmnuniyyətlə qəbul edirdi. Ata oğlunun dəlisi idi. Oğlu onun bu dünyada ən böyük və yeganə iftixar mənbəyi idi. Ata oğlunun bir sözünü iki eləməzdi.

Biçarə Nəsib bəyin isə ömrü boyu pula ehtiyacı olub. Sıxıntı içində dolanıb, maarif nazirinin müavini, nazir, Azərbaycan Demokratik Respublikasının hökumət sədri kimi mühüm dövlət vəzifələrində işləməsinə baxmayaraq, həmişə atası Yusif bəy tərəfindən maliyyə yardımı alıb.

Bir dəfə yenə də atasına məktub yazıb nə iləsə bağlı pul istəyəndə bu dəfə daha atası dözməyib ona belə bir məktub yazır ki...

"Sözüm yox, ay oğul, sənə yenə də pul göndərərəm. Amma indi səndə də bir az təpər olsun da... Axı mənim də artıq o yaşım yoxdur. Bu gün varam, sabah yox. Bəs sən mənsiz nə edərsən? Səndən çox nigaranam, ay oğul. Vaxtilə sən tələbə idin, təhsil alırdın sənə yardım edirdim. Çünki işləmirdin. Bu mənim atalıq borcum idi. Sənə kömək etməliydim. Təhsil aldın, qurtardın yenə də maddi vəziyyətin düzəlmədi. Evləndin. Ailə sahibi oldun yenə də maddi vəziyyətin düzəlmədi ki, düzəlmədi. Yenə də sənə bacardığım köməkliyi edirdim.

Amma indi ay oğul, pis-yaxşı özün qurduğun hökumətdir. Mənim hökumətimi bəyənmədin, yenisini özün qurdun. Başa düşə bilmirəm. Bəs sənin qurduğun hökumət sənə niyə yardım etmir?... Yaxşı ay oğul, qurban olaram sənə. Köməklik deyirsən, köməklik edərəm. Nəfəsim ağzımdan çıxana qədər sənə

köməklik edəcəyəm. Arxayın ol... Amma yenə də vallah heç nə başa düşmürəm". Yox, yox, vallah yox, qətiyyən yox. Məni düzgün başa düşün. Mən nə özümü Nəsib bəylə müqayisə edib bir tuturam, nə də ki, atası Yusif bəyi atam Bəxtiyarla. Yox, bir də yox. Sadəcə olaraq hadisələr arasında bir az yaxınlıq, müəyyən qədər oxşarlıq görürəm. Həm də mənim atam ömrü boyu maaşla, qonorarla, gecədən səhərə kimi stol arxasında oturub şam kimi əriyə-əriyə ailəsini saxlayıb, nə torpaq sahibi mülkədar olub, nə də ki...

Amma mənə isə... Mənə çatanda isə... kövrəlirəm. Ardını yaza bilmirəm, gözlərim dolur.

■

Pakistan. İslamabad, 1998-ci ilin iyunu. İstinin hərarəti kölgədə əlli dörd-əlli altı dərəcəyə qədər çatıb. Heç dözüləsi deyil. Göydən yerə elə bil ki, od yağır. Belə istidə nəinki ilanlar, lap elə daş da mələyər, dağ da. Belə istidə ailəmi burada saxlaya bilmərəm. Uşaqlar məktəbdən tətilə çıxan kimi (övladlarım İslamabadda türk kollecində təhsil alırdılar) Bakıya göndərirəm.

Elə bu günlərdə Hindistan öz nüvə silahlarını sınaqdan keçirdi. Pakistan Hindistana cavab olsun deyə o da öz silahlarını sınaqdan keçirməyə başladı. Onsuz da gərgin olan siyasi vəziyyət bir az da tarıma çəkildi. Ölkə müharibənin biraddımlığında idi. Saatlarla elektrik enerjisini kəsirdilər, vermirdilər.

Kondisionersiz heç beş dəqiqə belə qalmaq olmurdu. İstidən nəfəsimiz kəsilirdi, ölkədə elə bil ki, hava adında heç nə yox idi. Elektrik enerjisini kəsən kimi qaçıb gedib maşında kondisioneri yandırıb elə oradaca gecələyirdik.

Atam bundan xəbər tutanda çox pis oldu. Kişi heç özünə yer tapmırdı. Hər gün mənə zəng edib, "ay oğul özünə generator al" deyirdi. Elə bütün məsələ də onda idi ki, bizə mərkəzdən göndərilən pul vəsaitində, maddələr cədvəlində generator sözü heç bir bənddə yox idi. Yazılmamışdı. Ona görə də generator nə ələvə texniki avadanlıq, nə də ki, digər alışlar kimi alına bilməzdi.

Buna ixtiyarımız yox idi. Maddəni aşa bilərdik. Bunu bizə irad tuta bilərdilər. Bu səbəbi isə heç cürə atama deyib mövcud vəziyyəti başa sala bilmirdim. Amma elə hər dəfə telefonla danışanda deyirdim ki, ay ata arxayın ol, özümə artıq yaxşı bir generator almışam. Əla da işləyir. Heç istini hiss etmirik. Bütün günü kondisionerdə oturub sərinlənirəm. Sən özündən muğayat ol.

Az bir vaxtdan sonra atam hardansa əsl həqiqəti öyrəndi. Bildi ki, generator-filan alıb eləməmişəm, yalan deyirəm, onu sakitləşdirmək üçün belə deyirəm ki, mənə görə narahat olmasın. Amma bunu hardan öyrəndiyini, kimdən soruşduğunu, necə bildiyini indiyə kimi də bilmirəm.

Ömrü boyu heç kimin işinə müdaxilə etməyən, heç kimin işinə qarışmayan atam tək bircə mənim hər bir işimdən dərhal hali olurdu, hər bir addımımdan xəbərdar olurdu. Sanki mənim hər bir addımımı izləyirdi. Mən bunu ona irad tutanda, daha doğrusu belə işlərinə görə ona etirazımı bildirib "Ay ata bəsdir də, axı mən uşaq deyiləm, bu nə vaxta kimi belə davam edəcək deyəndə" dillənirdi:

- Səndən çox nigaranam, ay oğul. Məni də başa düş. Məndən incimə. Çünki təbiət cəhətdən biz ikimiz də elə eyni adamlarıq. Eyni cürük. Xasiyyətcə eyniyik. Mən harda nə səhv edirəmsə, dərhal bilirəm ki, nə zamansa o səhvi sən də edəcəksən. Harda nə qəbahət bir işim olursa bilirəm ki, o qəbahəti sən də edəcəksən. Ona görə də səndən arxayın deyiləm. Ömrümün sonuna qədər də səndən arxayın ola bilməyəcəyəm. Sən mənim təkrarımsan, oğul. Sən mən olmaq istəməyən mənsən.

(Axı mən necə sən ola bilərəm, ay ata. Vaxtilə dediyim kimi mən bundan sonra lap belə iki yüz il də yaşasam yenə də sənin heç topuğuna da çata bilmərəm. Çünki sən elə sən idin.)

Atamın belə işlərindən vaxtilə heç xoşlanmazdım, acığım tutardı. Onun mənə qarşı olan belə hədsiz və sonu görünməyən qayğılarından bəzən bezərdim də... Onun bu işlərindən inciyərdim də. Ah... Amma indi isə...

Hə... yayın o qızmar günlərindən birində, Bakıdan İslamabada diplomatik kuryer xidmətinin iki əməkdaşı gəlir. Səfirlikdə görüşdüyümüz zaman onlardan biri mənə bir zərf verib deyir ki, bəs bunu Bəxtiyar müəllim sizə göndərib. Təəccüb etdim. Qəribədir. Axı dünən telefonla danışmışdıq. Heç nə başa düşməyərək zərfi alıb açdım. Zərfin içində bir məktub, bir də...

Aman Allah... Atam mənə generator almaq üçün pul göndərmişdi. Özümə yer tapa bilmədim. Məktubu axıra qədər oxuya bilmədim. Gözlərim doldu. Təkcə bu kəlmələri oxuya bildim.

- Oğul, mən burada kondinsionerin altında otura bilmirəm ki, mənim oğlum o istidə qovrula-qovrula qalsın mən isə burda sərinlənim. Ay oğul, Şəkiyə getməliyəm. Amma bunu özümə haram bilirəm ki, mən gedim sərində istirahət edim, balam isə istidə qalsın. Vallah yediyimi, içdiyimi özümə haram bilirəm. Səni and verirəm atanın canına, (atam bilirdi ki, bu dünyada ən əziz adamım, əstəfürullah Allahım o özü idi. Onun üçün də həmişə məni öz canına and içdirərdi. O mənim yeganə and yerim idi. Yadıma gəlir ki, uşaq vaxtı nəyəsə and içəndə, kimisə nəyəsə inandırmağa çalışanda deyərdim ki, atamın canı, Allahın canı bu işi mən etməmişəm. Deyərdi: - Ə... bəsdi məni bu qədər ilahiləşdirmə) tərslik eləmə bu pula generator al!

Bilmirəm bunu haradasa ya oxumuşam, ya da ki, haradansa eşitmişəm. Deyir: - "Xatirələrdə doluxsunurmuş, qəhərlənirmiş, xatirələrdə kövrəlirmiş, bulud kimi dolurmuş, bir himə bənd olur ki, leysan kimi göz yaşlarını töksün".

Belə və ya buna bənzər hadisələr. Mən İsveçrədə BMT-nin Avropa bölməsində daimi nümayəndə, səfir işlədiyim vaxtlarda da çox olmuşdum. Dünyanın ən bahalı ölkəsi, Avropanın mərkəzi, ən yüksək ali təhsilin, ən elitar bir cəmiyyətin formalaşdığı belə bir yerdə uşaq oxutdurmaq ən ağlagəlməz bir təsəvvür idi. Bu mənim üçün bir xəyal idi. Qızım Cenevrənin ən seçilən, ən bahalı bir təhsil ocağında "Kembric" kurslarında təhsil alırdı. Belə bir təhsil ocağında sözsüz ki, mən təkbaşına qızımı oxutdura bilməzdim. Maddi vəziyyətim buna imkan verməzdi. Mənim bir aylıq məvacibim qızımın aylıq təhsil puluna ancaq çatardı. Qızımın bütün təhsil xərcini isə atam özü çəkərdi. Nə qədər çətin də olsa, nə qədər baha da olsa atam belə bir təhsil üçün qətiyyən heyfsilənmirdi. Hər ay vaxtlı-vaxtında təhsil pulunu göndərərdi. Hamıya da fərəhlə deyərdi ki, mənim nəvəm İsveçrədə təhsil alır.

Sonralar qızım Bakıda atamın yaxın dostu dünya şöhrətli məşhur cərrah, Cənubi Azərbaycanda nəşr olunan "Varlıq" dərgisinin redaktoru Cavad Heyətlə fransız və ingilis dillərində danışanda atam sevincindən heyrətini gizlədə bilməmişdi. Sevincindən gözləri parıldayırdı. Tez-tez deyərdi:

- A kişi, sən bir işə bax ... mənim nəvəm ingilis-fransız dillərində belə sərbəst, belə rəvan danışır. Şekspiri, Hüqonu öz dilində oxuyur. Onların dilində danışır.

Amma atam heç bir vaxt mənim uğurlarımla belə fərəhləndiyini bildirməzdi, üzə vurmazdı. Nə mənim farsca belə səlist və rəvan danışığımdan, nə çox erkən yaşlarımdan elmlər doktoru, professor olmağımdan, nə də ki, fövqəladə və səlahiyyətli səfir rütbəmdən bir elə fərəhlənməzdi. Bilmirəm, bəlkə də fərəhlənərdi, sevinərdi, amma ki, bildirməzdi, qətiyyən, üzə vurmazdı.

Amma nəvəsinin əvvəllər İsveçrədə oxuyub sonra isə Fransada təhsilini davam etdirməyindən sonsuz dərəcədə sevinərdi, fərəhlənərdi.

Atam sırf müsəlman təbiətli, hər bir məsələdə qayda-qanun güdən, milli adət-ənənəyə son dərəcə riayət edən bir adam idi. Xeyr, köhnə fikirli deyildi, konservator deyildi. Qətiyyən yox. Nədənsə biz həmişə kiminsə haqqında filankəs müsəlman təbiətli, milli adamdır deyəndə dərhal fikirləşirik ki, həmin adam köhnə fikirlidir, geridə qalmışdır. Xeyr, atam müasir, açıq fikirli, hər bir yerdə yenilikçi, demokratik bir adam idi.

Deyirdi ki, hər bir xalqın, hər bir millətin yaratdığı öz demokratiyası özünəməxsus olmalı, onun öz adət və ənənəsinin milli dəyərlərinin üzərində qurulmalıdır.

Amerikanın öz adətlərinə uyğun olan öz demokratiyası var. Avropanın öz demokratiyası, Rusiyanın öz demokratiyası var, mənim də özümün başa düşdüyüm öz azadlığım, öz demokratiyam olmalıdır. Vəssalam. Amerikanın azadlığı, Avropanın sərbəstliyi mənə örnək ola bilməz. Bu mənə yaddır. Mənim sərbəstliyim, mənim azadlığım onların gördüyü, onların bildiyi, əməl etdiyi demokratiyadan fərqlənməlidir. Mən demirəm ki, mənim qanunlarım, demokratiya bildiyim zat onlarınkından yaxşıdır və yaxud da onlarınkı bizimkindən pisdir. Xeyr. Mən nə Amerikanın demokratiyasını qəbul edə bilərəm, nə də ki, Avropanınkını. Doğrudur, Amerika azadlıq ölkəsidir.

Buna heç kim heç nə deyə bilməz. Amma ki, bərabərlik ölkəsi deyildir. Mənim demokratiyam, mənim azadlığım, sərbəstliyim öz köküm, öz milli dəyərlərim, yazılmamış, amma əməl olunan dədə-baba qanunlarım üzərində qurulmalıdır. Yoxsa ara qarışar, məzhəb itər. Böyük-kiçik hörməti aradan götürülər. Əlbəttə, Avropada hər nə yaxşı varsa mən onu inkar etməməliyəm. Əksinə onu götürməliyəm, özümünküləşdirməliyəm, öyrənməliyəm. Bu vacibdir, bu dünyanın qanunudur. Amma öz yaxşılarımı da unutmamalıyam.

Onların adətlərini öz adətlərim üzərində qurmamalıyam. Onlar mənim yaxşılarımı, yaxşı adətlərimi götürmürlərsə özləri bilərlər, bu onların öz işləridir. Halbuki mənim yaxşılarım onlarınkından qat-qat çoxdur, daha gözəldir. Amma mənim adət-ənənəmə də hörmət etməlidirlər, ona hörmətlə yanaşmalıdırlar, onu pisləməməlidirlər. Yoxsa arada yaxınlıq, qarşılıqlı hörmət itib-batar, bir-birimizə hörmətsizlik yaranar"...

*(Davamı gələn sayımızda)*